# HƏYAT BİLGİSİ 2

Dərslik



 

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Elşad Yunusov, Gülər Mehdiyeva, Elmina Kazımzadə, Yalçın İslamzadə,
Elmar İmanov, Famil Ələkbərov, İlahə Tağıyeva

# HƏYAT BİLGİSİ 2

Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün
Həyat bilgisi fənni üzrə dərslik

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **trm@arti.edu.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# MÜNDƏRİCAT


## 1 MƏN VƏ MƏKTƏBİM 7

1. Məktəbimiz ........ 8
2. Həm oxşar, həm fərqliyik ........ 11
3. Birlikdə ........ 14
4. Bir-birimizi dinləyirik ........ 17

Ümumiləşdirici tapşırıqlar ........ 20

## 2 DƏYƏRLƏR VƏ SAĞLAMLIQ 21

5. Dövlətimiz ........ 22
6. Müxtəliflik ........ 25
7. Hüquqlarımız ........ 28
8. Sağlam həyat ........ 31

Ümumiləşdirici tapşırıqlar ........ 34

## 3 MATERİALLAR VƏ TƏHLÜKƏSİZLİK 35

9. Təbii və təbii olmayan materiallar ........ 36
10. Materialların xassələri ........ 39
11. Materialların istifadəsi ........ 42
12. Elektriklə işləyən avadanlıqlar ........ 45
13. Elektron cihazlar və biz ........ 49

Ümumiləşdirici tapşırıqlar ........ 52

## 4 YER KÜRƏSİ 53

14. İşıq mənbələri ........ 54
15. Günəş sistemini tanıyaq ........ 57
16. Yer planeti ........ 60
17. Yaşayış yeri ........ 63

Ümumiləşdirici tapşırıqlar ........ 68

## 5 CANLILAR 69


18. Heyvanları tanıyaq ........ 70
19. Canlıların çoxalması və böyüməsi ........ 73
20. Bitkiləri tanıyaq ........ 76
21. Bitkilərin böyüməsi üçün nə lazımdır ........ 79
Ümumiləşdirici tapşırıqlar ........ 82


## 6 EHTİYATLI DAVRANAQ 83


22. Nəqliyyatda və yolda ........ 84
23. Təbii fəlakətlər ........ 87
24. Təhlükələrdən necə qorunaq ........ 90
25. Qənaət ........ 93
**Ümumiləşdirici tapşırıqlar ........ 96**


## Dərslikdə istifadə olunan personajlar


Sənan


Sevil


Azər


Səbinə


Elxan


Günay


Kamran


Leyla

# KİTABLA TANIŞ OLAQ

**Bölməyə dair** məlumatlar təqdim olunur və verilən suallarla şagirdlərdə bölmə haqqında təsəvvür yaradılır.




Şagirdləri müzakirəyə cəlb edərək onlarda **mövzuya** maraq yaradılır.

**Açar sözlər** mövzuda öyrədiləcək yeni anlayışlardır.




**Fəaliyyətlər** şagirdlərin praktik bacarıqlarını inkişaf etdirir.



Təlim nəticələrində nəzərdə tutulan anlayışlar təqdim edilir.

**Müzakirə sualları** və **tapşırıqları** şagirdlərdə müstəqil düşünmə bacarığını inkişaf etdirir və bilikləri möhkəmləndirir.



Bölmə üzrə mənimsənilən bilik və bacarıqlar təkrarla möhkəmləndirilir.

Sualların köməyi ilə şagirdlərin **mövzuya dair bilikləri** yoxlanılır.



Qazanılmış bilik və bacarıqlar böyüklərin köməyi ilə oyun, müzakirə və müxtəlif fəaliyyətlərlə dərinləşdirilir.



# 1 MƏN VƏ MƏKTƏBİM



**HAZIRSINIZMI?**

- Şəkildə nə təsvir olunub?
- Nə baş verir? Kimləri görürsünüz?
- Sizcə, oyunu izləyənlər hansı hissləri keçirirlər?

# 1 MƏKTƏBİMİZ

**Açar sözlər**
- müəllimlər otağı
- sinif otağı
- məktəb qaydaları




- Siz öz məktəbinizi necə tanıdardınız?

## FƏALİYYƏT MƏKTƏBİMİZİ TANIDAQ

1. Müəlliminizlə bərabər məktəbi gəzin.
2. Müşahidələrinizi qeyd edin.
3. Sinfə qayıtdıqdan sonra komandalara bölünün.
4. Məktəbinizə aid sualları cavablandırın.
   - *Sinif otağınızın yanında hansı otaqlar var?*
   - *İdman zalında nələr gördünüz?*
   - *Akt zalı digər otaqlardan nə ilə fərqlənirdi?*




- Məktəbin otaqlarını tanımaq nə üçün lazımdır?

## ÖYRƏNMƏ




Məktəb bizə evimiz kimi doğmadır. Məktəbdə kitabxana, idman zalı, tibb məntəqəsi və başqa otaqlar var. Burada yazıb-oxumağı, hesablamağı və digər vacib bacarıqları öyrənir, həm də maraqlı oyunlar oynayırıq. Müəllimlərimiz bizə qayğı ilə yanaşırlar.
Məktəbə olan hörmətimizi biz yaxşı oxumaqla və davranış qaydalarına düzgün əməl etməklə göstərə bilərik.

- *Dərsə gecikməmək;*
- *dəhlizlərdə qaçmamaq;*
- *pəncərə altlığında və pilləkəndə oturmamaq;*
- *pəncərədən bayıra əyilməmək;*
- *qəza siqnal düymələrinə toxunmamaq;*
- *bitkilərə ziyan vurmamaq.*

Bunlar əsas davranış qaydalarıdır.
Davranış qaydalarına əməl etmək özümüzün və ətrafdakıların təhlükəsizliyi üçün lazımdır. Bu həm də müəllimlərimiz və məktəb yoldaşlarımızla xoş münasibət qurmağa kömək edir.

### Müzakirə

- Davranış qaydalarına əməl etməsək, nə baş verər?
- Davranış qaydalarına əməl etmək ətrafdakılarla münasibətlərə necə təsir edir?

## TAPŞIRIQ

1. Məktəblilərin hansı hərəkətləri davranış qaydalarına uyğun deyil? Hər bir şəkil haqqında 2-3 cümlədən ibarət fikir bildirin.
















Davranış qaydalarına daha nələri əlavə etmək olar? Yoldaşınızla birlikdə 2-3 yeni qayda tərtib edin.

### Özünüzü yoxlayın

- Məktəbinizdə hansı otaqlar var?
- Məktəb daxilində şagirdlər hansı qaydalara əməl etməlidirlər?
- Hansı davranış qaydaları təhlükəsizliyimiz üçün vacibdir?

2

# HƏM OXŞAR, HƏM FƏRQLİYİK

**Açar sözlər**

- xarici görünüş
- maraqlar
- xasiyyət



Biz əkizik. Çoxları bizi dəyişik salır. Amma biz bir-birimizdən fərqlənirik. Mən fəalam, bacım isə çox sakitdir. Mən rəqs etməyi, o isə şəkil çəkməyi xoşlayır.

- Əkizləri nə üçün dəyişik salırlar? Onlar bir-birindən necə fərqlənirlər?
- Bəs siz dostlarınızdan necə fərqlənirsiniz?

## FƏALİYYƏT

1. Müəllimin köməyi ilə bir aparıcı seçin.
2. Aparıcı aşağıdakı sualları bir-bir ucadan oxusun.
3. Aparıcı sualları oxuduqca "**BƏLİ**" cavabını verən şagirdlər ayağa qalxıb bir-birini salamlasın.

*1. Gözləriniz qəhvəyi rəngdədirmi?*
*2. Saçınız buruqdurmu?*
*3. İdman etməyi sevirsinizmi?*
*4. Musiqi alətində ifa edirsinizmi?*
*5. Cizgi filminə baxmağı xoşlayırsınızmı?*
*6. Meyvə yeməyi xoşlayırsınızmı?*

- Cavabınız kimlərlə eyni oldu?
- Cavabınız kimlərlə fərqli oldu?
- Sinif yoldaşlarınız haqqında yeni bir şey öyrəndinizmi?

## ÖYRƏNMƏ

İnsanlar bəzi xüsusiyyətlərinə görə bir-birinə oxşasalar da, hamı eyni deyil. Hər bir insanın özünəməxsus xüsusiyyəti var. Bu xüsusiyyətlər onu digərlərindən fərqləndirir. Fərqli olmağımız dünyamızı daha maraqlı və rəngarəng edir.





İnsanların oxşar və fərqli xüsusiyyətlərini iki qrupa ayırmaq olar:
*1. Xarici əlamətlər. Məsələn, saçımızın, gözlərimizin və dərimizin rəngi, boyumuz və çəkimiz.*
*2. Gözlə görünməyən şəxsi keyfiyyətlər. Məsələn, xasiyyətimiz, istəklərimiz və maraqlarımız.*

Kimsə xasiyyətcə sakit və təmkinli, dostu isə daha cəld və çevikdir. Hər bir insanın istəkləri və maraqları da fərqlidir. Biri şahmatı, digəri isə gimnastikanı xoşlayır. İnsanlar fərq və oxşarlıqları öyrənərək bir-birini daha yaxşı başa düşür və hörmət edirlər.
Fərqlərimizi bilərək biz bir-birimizi tanıyırıq. Bu, ətrafdakı insanlarla ünsiyyət qurmağımıza kömək edir.

### Müzakirə

- Fərqli xüsusiyyətləri öyrənmək nə üçün vacibdir?
- Hansı şəxsi keyfiyyətlərinizə görə dostlarınızdan fərqlənirsiniz?

## TAPŞIRIQ

1. Şəkildəki uşaqlar hansı xarici əlamətlərinə görə fərqlənirlər?
2. Onları maraqlarına görə qruplaşdırın.

| sənətkarlar | idmançılar | musiqiçilər |
|---|---|---|



















**Özünüzü yoxlayın**

- İnsanlar hansı şəxsi keyfiyyətlərinə görə fərqlənirlər?
- İnsanların fərqli xüsusiyyətlərini bilmək onlarla ünsiyyət qurmağa necə kömək edir?

# 3 BİRLİKDƏ

**Açar sözlər**

- birgə fəaliyyət
- vəzifə
- əyləncə




Biz musiqiçilər ailəsiyik. Anamın bacısı pianoda, atamın qardaşı isə nağarada ifa edir. Bayramlarda nənə-babalarım üçün konsert təşkil edirik.

- Ailə şənliklərində kimlər iştirak edir?
- Belə şənliklərdə siz hansı işləri görürsünüz?

## FƏALİYYƏT İP YUMAĞI

Ləvazimat: nömrələnmiş kartlar, marker və ya qələm, ip yumağı. Sözlərin siyahısı:



| | | | | |
|---|---|---|---|---|
| 1. Ailə | 2. Bibi | 3. Əmi | 4. Dayı | 5. Xala |
| 6. Bacı | 7. Qardaş | 8. Valideyn | 9. Qayda | 10. Nənə |
| 11. Birlik | 12. Baba | 13. Əylənmək | 14. Qayğı | 15. Hörmət |



**1.** Hərəniz bir nömrələnmiş kart götürün.
**2.** Cədvəldə nömrəyə uyğun gələn sözü kartınıza yazın.
**3.** Sonra dairə yaradıb kartları yuxarı qaldırın.
**4.** "Ailə" kartını tutan şagird yumağı götürsün. İpin ucunu tutub yumağı dairədəki yoldaşlarınızdan birinə atsın.
**5.** Yumağı tutan şagird öz kartında yazılmış sözün ailə ilə əlaqəsini izah etsin. Sonra o da ipi özündə saxlayaraq yumağı digər şagirdə atsın.

- Sizcə, oyunun sonunda yaranan torun mənası nədir?

# Salam, nənə və baba!

Söz vermişdim ki, sizə dostlarım və sinfimiz haqqında məktub yazacağam. Bu gün dərsimiz çox maraqlı keçdi. Müəllim bizdən soruşdu ki, evdə və sinifdə hansı qaydalar eynidir? Bir az çətin oldu, ancaq babamın dediyi sözü yada salıb cavab verdim. Sinifdə də evdəki kimi, qaydalara əməl etmək vəzifəmizdir. Ailədə valideynlərimiz qayğımıza qalırlar. Sinifdə isə müəllim həm qayğımıza qalır, həm də bizə bilik və bacarıqlar öyrədir. Biz müəllimimizdən və bir-birimizdən öyrənirik. Hə, bir oxşar qayda da tapdım. Bilirsiniz hansıdır? Evdə mən əşyalarımı səliqəli saxlayıram. Sinifdə bunu bizə müəllim də tapşırıb. Qaydalar sinfimizdə yazılı şəkildə divardan da asılır. Qaydalara aid plakat düzəldib evdə də divardan asacağam. Sizlər üçün çox darıxmışam. Baba, söz vermişdin ki, bayramda bizə qonaq gələcəksiniz və biz birlikdə xalça muzeyinə gedəcəyik. Tez gəlin, yaxşımı?

*Hörmətlə, Sevil*

**Müzakirə**

• Ailədə və sinifdə sizin hansı vəzifələriniz var?
• Bu vəzifələr yerinə yetirilməsə, nə baş verər?

## TAPŞIRIQ

1. Sualları cavablandıraraq şəkillərdə təsvir olunan qruplar haqqında danışın.
- Kim hansı vəzifəni yerinə yetirir?
- Onlar harada bir yerdə ola bilirlər?
- Bu zaman hansı hissləri keçirirlər?



Sinif layihəsi



Ailə şənliyi



Voleybol komandası



Uşaq orkestri

### Özünüzü yoxlayın

- Ailənin hansı yaxın qohumları olur?
- Valideynlərin, müəllimlərin və şagirdlərin vəzifələri nədən ibarətdir?
- Hər kəsin öz vəzifəsini yerinə yetirməsinin bizim üçün əhəmiyyəti nədir?

# 4 BİR-BİRİMİZİ DİNLƏYİRİK

**Açar sözlər**
- səbirlə dinləmək
- diqqətlə baxmaq
- sakit səslə danışmaq




- Şəkildə uşaqlar nə edirlər?
- Sizcə, Elxan Sevili maraqla dinləyirmi? Bunu necə müəyyən etdiniz?

## FƏALİYYƏT DANIŞIRAM, DİNLƏYİRƏM



1. Parta yoldaşınızla üz-üzə oturun.
2. Öz başınıza gələn maraqlı bir əhvalat danışın, yoldaşınız isə dinləsin.
3. Hekayə sona çatanda dinləyən əhvalata aid suallar versin.
4. Sonra isə rollarınızı dəyişin.

- Əhvalatı danışanda yoldaşınızın sizi diqqətlə dinlədiyini nədən bildiniz?
- Siz yoldaşınızı diqqətlə dinləmək üçün nə etdiniz?
- Yoldaşınızın sizə verdiyi ən maraqlı sual hansı idi?

ÖYRƏNMƏ **HEKAYƏ**

## KOBUDLAR ÖLKƏSİ

Sənan Kobudlar ölkəsinə səyahət etdi. Orada balaca monstrlar yaşayırdı. Onlar bir-birinin sözünü kəsir və qışqıra-qışqıra danışırdılar. Sənan balaca monstrlara yaxınlaşıb: "Gəlin dost olaq!" – dedi.

Monstrlar qışqırığı dayandırıb dedilər:

– Bizim ölkədə heç kimin dostu yoxdur.



Sənan dedi:

– Ona görə ki siz nəzakət qaydalarına əməl etmirsiniz.

Monstrlar soruşdular:

– Hansı nəzakət qaydalarına?

Sənan cavab verdi:

– Sizə bir şey söyləmək istəyən yoldaşınızın üzünə baxın. Bu zaman o biləcək ki, onu dinləməyə hazırsınız. Həmsöhbətinizi səbirlə dinləyin. Danışmaq növbəsi sizə çatana qədər danışanın sözünü kəsməyin.

Monstrlar bir-birinə baxdılar:

– Dostumuzun olmasını istəyiriksə, biz bu qaydalara əməl etməliyik.

Birdən anasının səsi gəldi:

– Sənan, oyan, məktəbə gecikirsən!



– Ana, axı mən hələ... – Sənan yuxusunda mızıldandı və gözlərini açdı.

### Müzakirə

- Sizcə, monstrlar niyə birlikdə öyrənməyi, oynamağı və dost olmağı bacarmırdılar?
- Siz onlara necə kömək edərdiniz?
- Monstrların ölkəsi üçün hansı adı təklif edərdiniz?

## TAPŞIRIQ

1. Hər şəkli uyğun nəzakət qaydası ilə əlaqələndirin.

*a. Danışana diqqətlə qulaq asıram.*




*b. Kimsə kobudluq edirsə, ona başqalarına mane olduğunu sakitcə deyirəm.*




*c. Danışanın sözünü kəsmirəm, onu sonadək dinləyib sonra cavab verirəm.*




**Özünüzü yoxlayın**

- Nəzakət qaydalarına nələr daxildir?
- Nəzakət qaydalarına əməl etmək nə üçün vacibdir?

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Şəkillərdən hansında məktəb qaydaları pozulur?










2. Sözləri cümlələrlə uyğunlaşdırın.

xüsusiyyətlər | məktəb | nəzakət

a. İnsanlar yaşından asılı olmayaraq ünsiyyət zamanı ______ qaydalarına əməl etməlidirlər.

b. ______ insanları bir-birindən fərqləndirir.

c. ______ uşaqların yazıb-oxumağı, hesablamağı və digər vacib bacarıqları öyrəndiyi, maraqlı oyunlar oynadığı təhsil müəssisəsidir.

3. Hansı şəkildəki uşaqlar nəzakət qaydalarına riayət edir? Hansılarda isə bu qaydalar pozulub?













4. Yuxarıdakı şəkillərə uyğun cümlələri tapın.
- Danışanlar bir-birinin sözünü kəsəndə söhbət alınmır.
- Dərsə dostumla birgə hazırlaşırıq.
- Dostumuzu diqqətlə dinləyirik.
- Dost salam verəndə ona tərəf baxmaq lazımdır.

# 2 DƏYƏRLƏR VƏ SAĞLAMLIQ



## HAZIRSINIZMI?

- Səhnədə nə baş verir? Uşaqlar hansı bayramı qeyd edirlər?
- Siz bu bayramı necə keçirirsiniz?
- Şəkildəki ifaçılardan hansının yerində olmaq istərdiniz?

# 5 DÖVLƏTİMİZ

**Açar sözlər**

- dövlətin əlamətləri
- prezident
- ordu
- dövlət dili




- Dövlət rəmzlərindən başqa, daha nələrə hörmətlə yanaşmalıyıq?
- Ölkəmizi təqdim etmək üçün hansı bilgiləri verməliyik?

## FƏALİYYƏT "CƏSURLAR ÖLKƏSİ"

Ləvazimat: "seçki qutusu" (bir qutudan istifadə edə bilərsiniz).

**1.** Elə fikirləşin ki, sinfiniz "Cəsurlar ölkəsi" adlı kiçik bir ölkədir.

**2.** "Ölkə"nizə başçı seçin. Bunun üçün sırada 1-dən 10-a kimi sayın.



**3.** Hər 10-cu şagirdin adını lövhəyə yazın. Bunlar namizədlərdir. "Cəsurlar ölkəsi"nin başçısını onların arasından seçməlisiniz.

**4.** Hər bir namizəd "ölkə başçısı" seçilərsə, görəcəyi işlər haqqında danışsın.

**5.** Seçki üçün səsvermə gizli aparılır. Hər biriniz istədiyiniz namizədin adını bir vərəqə yazıb qatlayın və seçki qutusuna atın.

**6.** Sonda səslər sayılır. Ən çox səs toplamış namizəd "Cəsurlar ölkəsi"nin başçısı elan edilir.

- "Ölkə başçısı" nə deməkdir?
- Siz başçı seçilsəniz, "ölkə"niz üçün hansı işləri görərdiniz?

## ÖYRƏNMƏ



Dövlətin özünəməxsus əlamətləri olur. Bizim dövlətimizin başçısı, ərazisi, paytaxtı, ordusu və milli pulu onun əlamətləri hesab olunur.
Azərbaycan Respublikasının Prezidenti dövlətimizi hər yerdə təmsil edən birinci şəxsdir. O həm də ordumuzun Ali Baş Komandanıdır. Ordumuz ərazimizin bütövlüyünü qoruyur. Azərbaycan Respublikasının ərazisi toxunulmaz və bölünməzdir.
Ölkəmizdə rəsmi sənədlər Azərbaycan dilində yazılır, çünki dövlət dilimiz Azərbaycan dilidir.
Milli pulumuz da Azərbaycanın əlamətlərindən sayılır. Milli pulu cırmaq, əzmək, üstünü yazmaq olmaz.
Biz Azərbaycan Respublikasının vətəndaşlarıyıq. Hər bir vətəndaş dövlət əlamətlərinə və dövlət rəmzlərinə hörmətlə yanaşmalıdır.

### Müzakirə

- “Vətən bölünməz!” fikrini necə izah edərsiniz?
- Nə üçün Azərbaycan dilini yaxşı bilmək hamımızın borcudur?

## TAPŞIRIQ

1. Azərbaycan Respublikasının ərazisini göstərən şəkli seçin.



a)



b)



c)

2. Milli pulumuzun üzərindəki xarıbülbül simvolu nəyi ifadə edir?




3. Bu uşaqların hansının fikrini düzgün hesab edirsiniz? Nə üçün?



"Əmim oğlu Gürcüstan vətəndaşıdır. Onun sənədi gürcü dilində yazılıb. Məncə, bu, düzgün deyil, axı o, azərbaycanlıdır!"

"Məncə, düzgündür, çünki o, Gürcüstan dövlətinin vətəndaşıdır!"



4. Azərbaycan Respublikasının Dövlət Himnindəki bu misraları necə izah edə bilərsiniz?

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!

### Özünüzü yoxlayın

- Dövlətin əlamətlərinə nələr daxildir?
- Ölkəmizdə rəsmi sənədlər hansı dildə yazılır?

# 6 MÜXTƏLİFLİK

**Açar sözlər**

- müxtəliflik
- dillər
- dinlər



- Şəkildəki uşaqları fərqləndirən əlamətlər hansılardır?
- Onları birləşdirən nədir?
- Bu fotoşəkli necə adlandırardınız? Fikrinizi izah edin.

## FƏALİYYƏT GÜLƏN SMAYLİK

Ləvazimat: ağ kağız, rəngli karandaşlar, qara, sarı və qəhvəyi rəngli saplar, düymələr və yapışqan.

1. 3 nəfərlik qruplara bölünün.
2. Fərqli rənglərdə gülən smaylik düzəldin.
3. Rəngli saplardan smaylikə saç düzəldin.
4. Düymələrdən göz düzəldin.
   Təbəssüm çəkməyi yaddan çıxarmayın!
5. Qrup liderləri hazırlanan smaylikləri götürüb dairədə dayansın və işlərini nümayiş etdirsin.



- Smayliklərdə hansı oxşarlıq və fərqlər gördünüz?
- Neçə fərqli smaylik düzəldə bilərsiniz?

## MƏKTUB



**Salam, əziz dostlarım!**

Valideynlərimin işi ilə bağlı ailəmiz bir il Londonda yaşayacaq. Mən indi burada məktəbə gedirəm. İlk gün heç kimlə danışmırdım. Sonra uşaqlar mənə yaxınlaşıb hansı ölkədən olduğumu soruşdular. Dilimizə, yeməklərimizə və adlarımıza aid suallar verdilər. Onların da çoxu başqa ölkələrdən gəlib.

Hər il burada "Məktəbimiz bir dünyadır" adlı tədbir keçirilir. Şagirdlər ölkələrinə aid əşya və ya şəkil gətirirlər. Hər kəs ölkəsindəki insanların geyimi, dili və dini haqqında məlumatları təqdim edir. Mən də Vətənimiz haqqında təqdimat hazırlayıram.

Müəllim deyir ki, insanların belə fərqlənməsi MƏDƏNİ MÜXTƏLİFLİKDİR. Dərisinin rəngindən, geyimindən və dilindən asılı olmayaraq insanlar bir-birinə hörmətlə yanaşmalıdırlar. Fərqli dinləri də birləşdirən dəyərlər var. Bunlar ətrafdakılara qarşı mehriban olmaq və bir-birinə kömək etməkdir.

Yeni sinif yoldaşlarımla çəkdirdiyim şəkli gördünüzmü? Siz də mənə şəkillərinizi göndərin.

*Hörmətlə, Sənan*

**Müzakirə**

- Başqa ölkələrə aid məlumatları bilmək nə üçün vacibdir?
- Əgər məktəbinizə başqa ölkədən şagird gəlsə, ona necə kömək edərsiniz?
- Sizcə, Sənan Azərbaycan Respublikası haqqında təqdimatında nədən danışmalıdır?

## TAPŞIRIQ

1. **Müxtəliflik** və **dostluğu** əks etdirən şəkli tapın. Seçiminizi əsaslandırın.



1



2



3



4

2. Sənanın yeni məktəbi haqqında verilmiş hansı fikirlər yanlışdır?

a. Məktəbdəki uşaqların hamısı eyni ölkədəndir.
b. Müəllim müxtəlif dinlərin dəyərlərindən danışdı.
c. Məktəbdə hər kəsə hörmətlə yanaşırlar.
d. Uşaqların hər biri öz dilində danışır və heç kim bir-biri ilə maraqlanmır.

**Özünüzü yoxlayın**

- Mədəni müxtəliflik nə deməkdir?
- Dinləri birləşdirən əsas dəyərlər nələrdir?

# 7 HÜQUQLARIMIZ

**Açar sözlər**

- hüquq
- təhsil almaq
- sağlamlıq
- istirahət



Mən "Bacarıqlı əllər" dərnəyində toxuculuğu öyrənirəm.

Mən isə karate ilə məşğul oluram.



- Sizin sevdiyiniz məşğuliyyət hansıdır?
- Sevdiyiniz işlə məşğul olmağın sizə faydası nədir?

## FƏALİYYƏT KİM HAQLIDIR?

Leylanın Fəridə adlı dostu var. Bir dəfə həyətdə oynayanda Fəridə şikayətlənərək Leylaya dedi:

– Mən məktəbimizdəki futbol komandasına yazılmaq istəyirəm. Qardaşım isə gimnastikanı seçməyimi istəyir. O deyir ki, futbol qızlara uyğun idman deyil.



- Sizcə, kim haqlıdır: Fəridə, yoxsa qardaşı? Nə üçün belə düşünürsünüz?

## ÖYRƏNMƏ



Ailəmizlə yaşamaq, ad və soyad daşımaqla yanaşı, bizim təhsil, sağlamlığın qorunması və istirahət hüququmuz da var.
Təhsil hüququ sayəsində biz məktəbin sinif otaqlarından, kitabxanasından, idman zalından və dərsliklərdən pulsuz istifadə edirik.
Sağlamlığın qorunması hüququ bizə xəstələndikdə pulsuz tibbi xidmət almaq imkanı verir.
Hər bir vətəndaşın istirahət və asudə vaxtdan istifadə etmək hüququ var. Biz sağlamlığımıza ziyan vurmayan istənilən istirahət və məşğuliyyət növünü seçə bilərik.
Ölkəmizdə bütün insanların eyni hüquqları vardır. Hüquqlar insanların təhlükəsiz, sağlam və xoşbəxt yaşamasına şərait yaradır.

### Müzakirə

- Təhsil hüququnun əhəmiyyəti nədədir?
- “Sağlamlığın qorunması hüququ” nə deməkdir?
- Sizcə, sadalanan hansı hüquq daha vacibdir?

TAPŞIRIQ

1. Şəkillərdə uşaqların hansı hüquqlarından istifadə etməsi təsvir olunub?



a)



c)



b)



d)

2. Aşağıdakı fikirlərdən hansılar düzgündür?

a. Uşaqların dərs oxumağa və oynamağa vaxtı olmalıdır.
b. Şagird bütün günü dərsləri ilə məşğul olmalı, oynamamalıdır.
c. Xəstələnən uşağı həkimə aparmaq vacib deyil.
d. Biz sağlamlığımıza ziyan vurmayan istənilən məşğuliyyəti seçə bilərik.

**Özünüzü yoxlayın**

- Uşaqların hansı hüquqları var?
- Hüquqların insanlar üçün əhəmiyyəti nədir?

8

# SAĞLAM HƏYAT

**Açar sözlər**

- idman
- düzgün qidalanmaq
- bitki mənşəli qida
- heyvan mənşəli qida



- İdman hərəkətləri edirsinizmi? Bunun nə faydası var?

## FƏALİYYƏT İDMAN EDƏK

İdman hərəkətlərini verilmiş ardıcıllıqla yerinə yetirin.



1. Əllər önə
2. Əllər yuxarı
3. Əllər yanlara
4. Əllər aşağı

Bu hərəkətləri ardıcıl və ritmik olaraq edin.

İdman hərəkətləri edərkən bədəninizin hansı hissələrinin dartıldığını hiss etdiniz?

## ÖYRƏNMƏ

Sağlam yaşamaq üçün bəzi vərdişlərimiz olmalıdır. Bəs bu vərdişlər hansılardır?

***Yuxu rejimi***. Axşam vaxtında yatmalı və səhər yuxudan vaxtında oyanmalıyıq.

***İdman***. Səhərlər idman etmək gümrah və sağlam olmağımıza kömək edir.

***Düzgün qidalanmaq***. Qidaları bitki və heyvan mənşəli olmaqla qruplaşdırmaq olar. Səhər, günorta və axşam yeməyində bu qidalardan istifadə etməliyik.

### Bitki mənşəli qidalar

**Tərəvəz**



**Meyvə**



### Heyvan mənşəli qidalar



Gün boyu bir neçə dəfə su içməyi də unutmamalıyıq.

### Müzakirə

- "Sağlam həyat tərzi" deyəndə nə başa düşürsünüz?
- Gün ərzində su içməsək, nə baş verər?
- Heyvan və bitki mənşəli qidalar sağlam yaşamağımıza necə təsir edir?

## TAPŞIRIQ

1. Özünüz üçün gün rejimi cədvəli qurun. Bu cədvəli qurarkən nələrə diqqət etməlisiniz?

| | GÜN REJİMİ | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|---|---|
| 07:30 | səhər idmanı | ✓ | | ✓ | | | | |
| 07:45 | səhər yeməyi | ✓ | ✓ | ✓ | | | | |
| 08:00 | məktəb | ✓ | ✓ | ✓ | | | | |
| 13:30 | günorta yeməyi | ✓ | ✓ | | | | | |
| 14:00 | | | | | | | | |
| | | | | | | | | |

2. Şəklə diqqətlə baxın. Hansı şagird parta arxasında düzgün əyləşməmişdir? Sizcə, bu cür əyləşmək nəyə səbəb ola bilər?




### Özünüzü yoxlayın

- Sağlam yaşamaq üçün nələrə diqqət etməliyik?
- Gün boyu istifadə etdiyimiz qidaları necə qruplaşdırmaq olar?

## ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Hansı şəkildə Azərbaycanın iki dövlət rəmzi əks olunub?





2. Hansı fikir uşağın istirahət hüququnu əks etdirir?

   a. Səhər tezdən əl-üzümü yuyuram.
   b. Dərslərimi hazırlayandan sonra həyətdə dostlarımla oynayıram.
   c. Şam süfrəsini düzəltməkdə anama kömək edirəm.

3. Hansı şəkillərdə Günay öz sağlamlığının qayğısına qalmır? Fikrinizi izah edin.


a.


c.


e.


b.


d.


f.

3

# MATERİALLAR VƏ TƏHLÜKƏSİZLİK



## HAZIRSINIZMI?

- Sizcə, stol hansı materialdan hazırlanır?
- Elektriklə işləyən hansı əşyaları tanıyırsınız? Bu əşyalar hansı materialdan hazırlanmalıdır?

# 9 TƏBİİ VƏ TƏBİİ OLMAYAN MATERİALLAR

**Açar sözlər**

- təbii material
- təbii olmayan material



- Verilmiş əşyalar hansı materiallardan hazırlanıb?
- Bu materiallardan hansına təbiətdə rast gəlinir?

## FƏALİYYƏT SİNİFDƏKİ MATERİALLAR

Sinif otağınızda olan əşyaları nəzərdən keçirin. Taxta, şüşə, metal, plastik və kağız materiallarından hazırlanmış əşyaları sayın. Əşyaların sayını təsvir olunmuş diaqrama uyğun dəftərinizdə çəkin. Taxtadan hazırlanmış əşyaları qəhvəyi, şüşəni göy, metalı boz, plastiki yaşıl, kağızı isə qırmızı rənglə rəngləyin.




- Hansı materiallardan hazırlanmış əşyalar daha çoxdur?
- Bu əşyalardan hansılar eyni anda 2 və ya 3 materialdan hazırlanıb?

## ÖYRƏNMƏ

İstifadə etdiyimiz əşyalar müxtəlif materiallardan hazırlanır. Bu materiallar təbiətdə rast gəlinməsinə görə 2 qrupa bölünür: təbii materiallar və təbii olmayan materiallar.

Təbii materiallara Yer səthində rast gəlinir. Daş, qum, gil, təbaşir, qızıl və dəmir kimi materiallar təbii materiallardır. Bu materiallardan dəmir və qızıl metallara aiddir.


qum


gil


qaya (daş)


təbaşir


dəmir


qızıl

Təbii materialların bəziləri bitkilərdən əldə edilir.


pambıq


taxta

Təbii materialların bəziləri isə heyvanlardan əldə edilir.


yun


ipək

Təbii olmayan materiallar isə insanlar tərəfindən hazırlanır.



kağız



şüşə



plastik

Bu materiallar da təbii materiallardan əldə edilir. Məsələn, kağız ağacdan, şüşə qumdan, plastik materiallar isə, əsasən, neftdən alınır.

**Müzakirə**

- Təbiətdə bitkilər olmasaydı, hansı materialları əldə etmək mümkün olmazdı?
- Dəmirdən hansı məqsədlər üçün istifadə olunur?

## TAPŞIRIQ

1. Şəkildə verilənləri aid olduğu materiallara uyğun qruplaşdırın.

*a. Təbii materiallar.* *b. Təbii olmayan materiallar.*
*c. Heyvandan əldə edilən materiallar.* *d. Bitkidən əldə edilən materiallar.*



kağız



yun



daş



pambıq



ipək parça



şüşə

**Özünüzü yoxlayın**

- Hansı materiallara təbiətdə rast gəlinir?
- İnsanların hazırladıqları hansı materialları nümunə göstərə bilərsiniz?

# 10 MATERİALLARIN XASSƏLƏRİ

**Açar sözlər**

- maqnitlənmə
- suda batmayan material
- suda batan material




- Günay nə üçün balıq tuta bilmir?
- Əşyalar bir-birinə yapışa bilərmi?

## FƏALİYYƏT

İçərisində müəyyən qədər su olan qaba dəmirdən, gildən, plastmasdan və taxtadan hazırlanmış qaşıqlar daxil edin. Bir neçə saniyə müşahidə aparın.




- Nə müşahidə etdiniz?
- Hansı qaşıqlar suda batdı, hansılar isə batmadı?

## ÖYRƏNMƏ

Materialların xassələrindən biri də maqnitlənmədir. Maqnitlənmə xassəsi olan materiallar maqnit tərəfindən cəzb olunur. Belə materiallara dəmir və poladdan hazırlanmış əşyaları misal göstərmək olar. Metal olmayan materiallar (odun, şüşə, plastik, kağız, daş, qum) və qızıl kimi metallar isə maqnit tərəfindən cəzb olunmur.



Təbii maqnit xassəli material olan maqnit daşı.




İnsanların hazırladıqları maqnit xassəli material.



Bəzi materiallardan düzəldilmiş əşyalar ölçüləri böyük olsa da yüngül olur. Belə əşyalar, əsasən, suda batmır.



Bəzi materiallardan düzəldilmiş əşyalar isə ölçüləri kiçik olsa da ağır olur. Belə materiallar suda batır.

Materialların başqa bir xassəsi onların yanıcı olub-olmamasıdır. Bəzi materiallar asanlıqla yandığı halda, bəzləri yanmır. Bitkilərdən əldə edilən odun, pambıq, kağız kimi materiallar asanlıqla yanır. Daş, qum, gil və dəmir kimi təbii materiallar isə yanıcı deyil.

**Müzakirə**

- Yemək bişirmək üçün istifadə edilən qazanı hansı materiallardan hazırlamaq olmaz? Fikrinizi əsaslandırın.
- Plastik və dəmirdən hazırlanmış sancaqları bir-birindən necə ayırmaq olar?

## TAPŞIRIQ

1. Verilmiş əşyalardan hansı suda batmır, hansı isə batır?



**su butulkası**



**taxta yeşik**



**daş**



**dəmir mismar**



**rezin şar**



**şüşə**

2. Verilmiş ifadələri əşyalarla uyğunlaşdırın.

a. Yanıcı olmayan, maqnitlənən və ağır materialdan hazırlanmış əşya

b. Yanıcı, maqnitlənməyən və təbii olmayan materialdan hazırlanmış əşya

c. Maqnitlənməyən, yanıcı olmayan və təbii materialdan hazırlanmış əşya

d. Yanıcı, suda batmayan, təbii materialdan hazırlanmış əşya



**gil əşya**



**qayçı**



**kağız fil**



**taxta qayıq**

### Özünüzü yoxlayın

- Materialların hansı xassələrini sadalaya bilərsiniz?
- Hansı materiallardan hazırlanmış əşyalar asanlıqla yanır?

# 11 MATERİALLARIN İSTİFADƏSİ



**Açar sözlər**

- inşaat materialları
- keramik əşyalar

• Şəkildə hansı materialın alınması təsvir olunub?
• Taxtadan başqa hansı əşyaların hazırlanmasında istifadə olunur?

## FƏALİYYƏT EV TİKİRİK

Ləvazimat: rəngli plastilinlər.







**1.** Kiçik qruplara ayrılın.
**2.** Verilmiş materiallara uyğun plastilinlərdən ev maketi düzəldin.
• Evin damını hansı materialdan düzəltdiniz? Nə üçün?
• Evin pəncərələrini hansı materialdan düzəltdiniz? Fikrinizi əsaslandırın.

## ÖYRƏNMƏ

İnşaat işlərində materiallardan xassələrinə uyğun olaraq müxtəlif məqsədlər üçün istifadə edilir.




İnşaatla yanaşı, materiallardan başqa məqsədlər üçün də istifadə edilir. Gildən müxtəlif əşyalar hazırlanır. Bunlar keramik əşyalar adlanır.







Ağacdan odun əldə edilir. Odundan müxtəlif taxta əşyalar da hazırlanır.

Qumdan inşaat işləri ilə yanaşı, şüşə hazırlanmasında da istifadə olunur.



**Müzakirə**

- Nə üçün biz kağızdan qənaətlə istifadə etməliyik?
- Evdə istifadə etdiyiniz hansı əşyalar gildən hazırlanıb?

## TAPŞIRIQ

1. Materialları onlardan hazırlanan əşyalarla uyğunlaşdırın.

1 
gil

2 
odun

3 
qum

a. 

b. 

c. 

**Özünüzü yoxlayın**

- İnşaat işlərində hansı materiallardan istifadə olunur?
- İstifadə etdiyiniz hansı əşyalar taxtadan hazırlanıb?

# 12 ELEKTRİKLƏ İŞLƏYƏN AVADANLIQLAR



**Açar sözlər**

- elektrik avadanlıqları
- elektrik şəbəkəsi
- elektriki keçirən material
- elektriki keçirməyən material







- Şəkildəki avadanlıqların hansından saç qurutmaq üçün istifadə olunur?
- Həmin avadanlığın işləməsi üçün nə etmək lazımdır?

## FƏALİYYƏT HANSI MATERİAL ELEKTRİKİ KEÇİRİR, HANSI KEÇİRMİR?

Feni işə salmaq üçün onun çəngəli elektrik yuvasına taxılır.

- Sizcə, çəngəlin elektrik yuvasına daxil edilən hissəsi hansı materialdan hazırlanır?
- Fenin çəngəli elektrik yuvasına taxılsa, ancaq fen işləməsə, bunun səbəbi nə ola bilər?
- Elektriklə işləyən başqa hansı avadanlıqları tanıyırsınız?



## ÖYRƏNMƏ



Biz müxtəlif avadanlıqlardan istifadə edirik. Onlar işlərimizi asanlıqla yerinə yetirməyə kömək edir. Yeri süpürmək üçün süpürgədən istifadə edildiyini görmüşsünüz. Bu işi tozsorandan istifadə etməklə daha tez və rahat görmək olar. Tozsoranı işə salmaq üçün onun çəngəlini elektrik yuvasına taxırıq. Bununla da tozsoran elektrik şəbəkəsinə qoşulur. O, elektrik şəbəkəsinə qoşulmasa, işləməz. Çünki tozsoran elektrik avadanlığıdır və elektriklə işləyir.

### Elektrik avadanlığı deyil:



karandaşyonan



süpürgə



çaydan

### Elektrik avadanlığıdır:



tozsoran



ütü



elektrik çaydanı

Elektrik insan sağlamlığı üçün təhlükəli olduğuna görə əlimiz metal hissələrə dəyməməlidir. Avadanlıqların elektriki keçirən hissəsi metaldan hazırlanır və üzəri plastik materialla örtülür. Plastik örtük bizi elektrikin təhlükələrindən qoruyur.




Elektrik avadanlıqlarından istifadə edərkən ehtiyatlı olmalı və aşağıdakı qaydalara diqqət etməliyik:



• Elektrik yuvasına hər hansı əşya daxil etmək olmaz.



• Yaş əllə elektrik avadanlıqlarına toxunmaq olmaz.



• Hamamda elektrik avadanlıqlarından istifadə etmək olmaz.



• Plastik örtüyü zədələnmiş avadanlıqdan istifadə etmək olmaz.

## Müzakirə

- Elektrik avadanlıqlarının hazırlanmasında hansı materiallardan istifadə olunur? Bu materiallar hansı xüsusiyyətlərinə görə fərqlənir?
- Elektrik avadanlıqlarından istifadə edərkən diqqətli olmasaq, nə baş verər?

## TAPŞIRIQ

1. Sinifdə və evdə hansı elektrik avadanlıqlarından istifadə olunduğunu sadalayın.
2. Aşağıdakı əşyalardan hansı elektriki keçirir? Fikrinizi izah edin.


dəmir qaşıq


plastik çəngəl


plastik şirə çöpü

3. Sizcə, şəkildə verilmiş avadanlığın istifadəsi niyə təhlükəlidir?



### Özünüzü yoxlayın

- Elektrik avadanlıqlarının hansı üstünlüyü var?
- Elektrik avadanlıqlarının hansı hissəsi elektriki keçirməyən materialdan hazırlanır?
- Elektrik avadanlıqlarından təhlükəsiz istifadə etmək üçün hansı qaydalara əməl etmək lazımdır?

# 13 ELEKTRON CİHAZLAR VƏ BİZ

**Açar sözlər**

- mobil telefon
- planşet
- kompüter




- Siz bu cihazlardan daha hansı məqsədlərlə istifadə edirsiniz?
- Onlardan istifadə edərkən nələrə əməl etməlisiniz?

## FƏALİYYƏT CİHAZLARDAN NECƏ İSTİFADƏ EDİRİK?

İstifadə qaydalarını cihazlarla uyğunlaşdırın.



**televizor**



**mobil telefon**



**planşet**



**kompüter**

1. Onu paltarın cibində deyil, çantada daşımaq daha təhlükəsizdir.
2. Ondan oyuncaq kimi istifadə etmək olmaz.
3. Yatarkən onu yastığın altına qoymaq olmaz.
4. Ondan istifadə zamanı qulaqlıq taxmaq məsləhətdir.
5. Ona yaxından baxmaq gözlərə pis təsir edir.
6. Onunla mümkün qədər az danışmaq lazımdır.

- Hansı qaydalar cihazların hamısı üçün ümumidir?

## ÖYRƏNMƏ



Mobil telefon, planşet və kompüter məlumat almağa və başqaları ilə ünsiyyət qurmağa imkan verən elektron cihazlardır. Bu cihazlar vasitəsilə biz həm də musiqi dinləyir və oyunlar oynayırıq. Göründüyü kimi, onların faydası çoxdur. Ancaq bəzi məsləhətlərə əməl etməsək, bu cihazlar sağlamlığımıza zərər vura bilər. Ekranı çox parlaq etmək və ona 30 sm-dən yaxın məsafədən baxmaq gözlərimiz üçün zərərlidir. Çalışmalıyıq ki, mobil telefon və planşetdən gün boyu az istifadə edək. Kompüterin qarşısında isə gündə iki saatdan çox vaxt keçirməyək.





Kompüterdən istifadə edərkən qida qəbul etmək və ekrana əllə toxunmaq olmaz.



Elektrik şəbəkəsinə qoşulu vəziyyətdə olan telefon və planşetdən istifadə etmək olmaz.

### Müzakirə

- Kompüterdən ən çox hansı işlər üçün istifadə olunur?
- Elektrik şəbəkəsinə qoşulu olan mobil telefondan istifadə etmək nə üçün təhlükəlidir?

## TAPŞIRIQ

1. Uşaqlar sinif yoldaşlarından bugünkü tapşırıq barədə soruşmaq istəyirlər. Bunun üçün üç vasitədən istifadə edə bilərlər: mobil telefon, planşet və ev telefonu.



**Səbinə**

Mən mobil telefonla soruşardım!

Mən ev telefonu ilə danışardım!



**Sənan**



**Azər**

Mən planşetlə görüntülü zəng edərdim.

Siz hansını seçərdiniz? Seçdiyiniz vasitənin üstünlüyünü izah edin.

2. Hansı fikirlər düzgün deyil? Nə üçün belə hesab edirsiniz?

**a.** Mobil telefonla uzun-uzadı danışmaq sağlamlığa pis təsir edir.

**b.** Uşaqlar mobil telefon və planşetdən yalnız oyunlar üçün istifadə edirlər.

**c.** Kompüter insanlara hərtərəfli təhsil almağa, daha səmərəli işləməyə imkan yaradır.

**d.** Vaxt itirməmək üçün elə monitora baxa-baxa qidalanmaq daha yaxşıdır.

### Özünüzü yoxlayın

- Telefon, planşet və kompüterdən hansı məqsədlərlə istifadə olunur?
- Telefon, planşet və kompüterdən istifadə edərkən nələrə diqqət etmək lazımdır?

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Verilmiş materiallardan birini seçin:

| kağız | plastik | şüşə | dəmir | gil |
|---|---|---|---|---|

Seçdiyiniz material

a) təbii, yoxsa təbii olmayandır?

b) yüngül, yoxsa ağır materialdır?

c) suda batmayan, yoxsa suda batan materialdır?

d) maqnitlənən, yoxsa maqnitlənməyən materialdır?

e) tikintidə istifadə olunurmu? Fikrinizi əsaslandırın.

f) yanıcıdır, yoxsa yanıcı deyil?

g) elektriki keçirir, yoxsa keçirmir?

2. Elektriklə işləyən əşyaları müəyyən edin:

a.


c.


e.


b.


d.


f.


# 4 YER KÜRƏSİ



**HAZIRSINIZMI?**

- Səmaya baxanda nə düşünürsünüz?
- Hansı planetləri tanıyırsınız?
- Yer planetini necə təsvir edərdiniz?

# 14 İŞIQ MƏNBƏLƏRİ

**Açar sözlər**
- işıq mənbəyi
- işığın yayılması





- Sizcə, gecələr, yoxsa gündüzlər ətrafı daha yaxşı görürük? Bunun səbəbi nə ola bilər?
- Axşam vaxtı işıq sönsə, nə edərsiniz?

## FƏALİYYƏT İŞIQ BİZƏ NƏ ÜÇÜN LAZIMDIR?

Ləvazimat: fənər, karton qutu.



**1.** Kağız parçasına bir rəqəm yazın və qutunun içinə qoyun. Kağızdakı rəqəmi yoldaşınıza deməyin.
**2.** Qutunun qapağını bağlayın və deşiklərdən birini əlinizlə örtün.
**3.** Yoldaşınız qutunun içərisinə baxsın və rəqəmi oxumağa çalışsın.
**4.** Yoldaşınız qutuya baxarkən digər deşikdən fənərlə qutuya işıq salın.
**5.** Yoldaşınız kağızdakı rəqəmi yenidən oxusun.
- Hansı halda kağızdakı rəqəm daha yaxşı görünür? Sizcə, nə üçün?
- Fənəri söndürüb qutunun qapağını açsaq, kağızdakı rəqəmi yaxşı görərikmi?

## ÖYRƏNMƏ

Gündüz vaxtı ətrafımızdakı əşyaları asanlıqla görürük, çünki Günəş ətrafı işıqlandırır. Günəş işıq mənbəyidir. Gecə Günəş işığı olmadığına görə ətrafı görmək üçün lampa, şam və fənər kimi işıq mənbələrindən istifadə edirik. Bu işıq mənbələrini insanlar düzəldirlər. Onlar süni işıq mənbəyidir. Günəş və göydəki ulduzlar isə təbii işıq mənbəyidir. Bəzi canlılar qaranlıqda işıq saçır. Belə canlılar da təbii işıq mənbəyidir.

**Bunlar təbii işıq mənbəyidir:**


Günəş


ulduzlar


işıldaböcək

**Bunlar süni işıq mənbəyidir:**


lampa


şam


mobil telefonun fənəri

Bir gözümüzü yumub şirə çöpünün içindən yanan şama baxsaq, şamın alovunu görə bilərik. Çöpü əyib baxdıqda isə işıq mənbəyini görməyəcəyik, çünki işıq gözümüzə düz xətt kimi gəlir.



### Müzakirə

- İşıq mənbələri bizə nə üçün lazımdır?
- Təbii və süni işıq mənbələrinin hansı fərqi var?

## TAPŞIRIQ

1. Hansı halda kitabı oxumaq daha rahatdır? Fikrinizi izah edin.



2. Hansı halda çubuğun içindən baxdıqda şamı görmək mümkün deyil? Fikrinizi izah edin.

a.



b.



3. İşıq mənbələrinin süni və ya təbii olduğunu müəyyən edin.



**şimşək**



**işıqsaçan balıq**



**velosipedin işığı**



**fişəng**

### Özünüzü yoxlayın

- İşıq mənbəyi nəyə deyilir?
- Süni işıq mənbələrindən nə zaman istifadə edirik?

15

# GÜNƏŞ SİSTEMİNİ TANIYAQ

**Açar sözlər**
- göy cismi
- planet
- ulduz




- Gecə vaxtı göyə baxarkən nə müşahidə edirsiniz?
- Göydəki ulduzlar niyə kiçikdir?

## FƏALİYYƏT GÜNƏŞ VƏ PLANETLƏR

Ləvazimat: rəngli kağız, yapışqan, qayçı və karandaş.

**1.** Kağız üzərində Günəş və onun ətrafında səkkiz dairəvi xətt çəkin.

**2.** Müxtəlif ölçü və rənglərdə səkkiz dairə kəsərək hazırlayın.

**3.** Yapışqan vasitəsilə əvvəlcədən kəsilmiş dairələri uyğun uzaqlıqda kağıza yapışdırın.




- Dairələri nə üçün müəyyən ardıcıllıqla yapışdırdınız?
- Daha hansı göy cisimlərini əlavə edə bilərsiniz?

## ÖYRƏNMƏ

Gecə vaxtı göy üzündə parlaq cisimlər müşahidə edə bilərsiniz. Bunlar ulduzlardır. Günəş, ulduzlar və Ay səma cisimləridir. Bunlardan başqa, planet adlanan səma cisimləri də var. Yaşadığımız Yer kürəsi bu planetlərdən biridir. Yerdən başqa, Günəşin ətrafında yeddi planet var. Günəş və planetlər "Günəş sistemi"ni əmələ gətirir. Bu sistemə daxil olan səkkiz planet Günəş ətrafında dövr edir.




Yer Günəş sistemində həyatın mövcud olduğu yeganə planetdir.

**Müzakirə**

- Ay nə üçün parlaq görünür?
- Günəş olmasaydı, nə baş verərdi?
- Uzaq məsafədə yerləşən səma cisimlərini necə müşahidə edə bilərsiniz?

## TAPŞIRIQ

1. Şəkilləri sözlərlə uyğunlaşdırın.













**1 Ay** **2 Yer kürəsi** **3 Saturn** **4 teleskop**

2. Planetlərin adlarını şəkildə verilən ardıcıllıqla dəftərinizə qeyd edin.




3. Hərflərin yerlərini dəyişərək planet adlarını müəyyən edin.

**rasm** **tupenn** **naur** **ery** **nerave** **tasurn**

### Özünüzü yoxlayın

- Hansı səma cisimlərini tanıyırsınız?
- Günəş sistemindəki hansı planetdə həyat var?

## DƏRSDƏN SONRA

Planetlərdən biri haqqında məlumat toplayın.

# 16 YER PLANETİ

**Açar sözlər**
- dünya
- yaşayış məskəni




- Siz Leylanın sualına necə cavab verərdiniz?

## FƏALİYYƏT TƏBİƏT

Ləvazimat: karton lövhə, plastilin, qeyd kağızı.

1. Qruplara bölünün.
2. Qruplardan biri plastilindən dağ, başqası çəmən, digəri göl, o biri isə çay düzəltsin.
3. Düzəltdiyiniz nümunələri karton lövhə üzərinə yapışdırın və adlarını qeyd edin.



- Göl ilə çayı necə fərqləndirərdiniz?

## ÖYRƏNMƏ

Yer kürəsi Günəş sistemindəki digər planetlərdən fərqlənir. Onu fərqləndirən əsas xüsusiyyətlər burada havanın, suyun, torpağın və canlıların olmasıdır.




Yer kürəsində dağlar, çəmənlər, meşələr, səhralar, çaylar, göllər və okeanlar var. Bunlar həm də canlıların yaşayış məskənidir.


dağ


meşə


çay


göl

**Müzakirə**

- Yer kürəsini digər planetlərdən necə fərqləndirərdiniz?

## TAPŞIRIQ

1. Sözlərdən istifadə edərək mətni tamamlayın və dəftərinizə yazın.

**hava** **su** **torpaq** **Günəş sistemi**

Yer kürəsi ______ planetlərindən biridir. Bəzən o, "mavi planet" də adlandırılır. Buna səbəb planetimizin çox hissəsinin ______ ilə örtülü olmasıdır. O həm də bizi nəfəs almaq üçün ______ və meyvə-tərəvəz yetişdirmək üçün ______ ilə təmin edir.

2. Şəkilləri nəzərdən keçirin.

**a.** Səhra və meşəyə aid ən azı iki əlaməti sadalayın.
**b.** Hansı yaşayış məskəni əksər canlıların yaşaması üçün daha əlverişlidir?



**səhra**



**meşə**

### Özünüzü yoxlayın

- Planetimiz hansı xüsusiyyətlərinə görə canlıların yaşaması üçün əlverişlidir?
- Canlıların yaşadığı hansı yaşayış məskənlərini tanıyırsınız?

# 17 YAŞAYIŞ YERİ

**Açar sözlər**

- yaşayış məskəni
- meşə
- çəmən
- su
- səhra



- Yaşayış yeri deyəndə nə başa düşürsünüz?
- Yaşayış yerinin canlılar üçün əhəmiyyəti nədir?

## FƏALİYYƏT CANLILAR HARADA YAŞAYIR

Ləvazimat: plastilin və yaşıl, sarı, mavi rəngli kağızlar.



**1.** Qruplara bölünün.
**2.** Qruplara ad verin: "Su", "Səhra", "Meşə".
**3.** Plastilindən suda, səhrada və meşədə yaşayan heyvan fiqurları düzəldin.
**4.** Düzəltdiyiniz heyvan fiqurlarını yaşadıqları yerə uyğun olaraq rəngli kağızlara yapışdırın (yaşıl – meşə, sarı – səhra, mavi – su).







- Heyvan fiqurlarını yaşadıqları yerə uyğunlaşdırarkən nələrə diqqət etdiniz?

## ÖYRƏNMƏ

Heyvanlar, bitkilər və digər canlılar fərqli yerlərdə və ya məskənlərdə yaşayırlar. Yaşayış məskənlərində onlar həm qidalanır, həm də təhlükələrdən gizlənərək qorunurlar. Bir çox heyvanların yaşayış yeri çəmənliklərdir. Çəmənlik çoxlu ot olan yerdir. Kəpənəklər və böcəklər digər heyvanlardan qorunmaq üçün çəmənlikdə bitkilərin arasında gizlənirlər.



Meşə isə ağacların çox olduğu yerdir. Maral, ayı, şir, canavar və quşlar əsasən meşədə yaşayan canlılardır. Onlar orada yaşayır, qidalanır və qorunmaq üçün gizlənirlər.



Bəzi heyvanlar isə suda yaşayırlar. Çaylar, göllər, dənizlər və okeanlar canlıların yaşadığı yerlərdəndir. Balinalar və delfinlər əsasən okeanlarda, balıqlar isə çaylarda, göllərdə, dənizlərdə və okeanlarda yaşayan heyvanlardır. Suda heyvanlardan başqa, su bitkiləri də yaşayır.



Səhranın da özünəməxsus canlıları var. Bitkilərdən kaktus, heyvanlardan isə dəvə bu yaşayış məskənində yaşayan canlılardandır.



**Müzakirə**

- Meşə nə üçün bitki və heyvanların yaşaması üçün daha əlverişlidir?
- Suda yaşayan heyvanlar üçün su bitkilərinin əhəmiyyəti nədir?
- Hansı yaşayış məskənində daha çox canlı yaşayır?
  Fikrinizi nümunələrlə əsaslandırın.

## TAPŞIRIQ

1. Sizcə, ağacdələn ağacı nə üçün deşir?

2. Eyni yaşayış məskənində olan bitkilər və heyvanlar bir-birinə necə kömək edir?



3. Hansı canlıların yaşayış məskəni meşədir?



























4. Təsvir olunmuş yaşayış məskənlərini orada yaşayan canlılarla uyğunlaşdırın.

A


C


B


D



1


2


3


4


5


6


7

## Özünüzü yoxlayın

- Yaşayış məskənlərinin canlılar üçün rolu nədir?
- Yaşayış məskənləri bir-birindən necə fərqlənir?

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Göy cisimlərinə aid olmayan bəndi seçin

a.


b.


c.


d.


2. İnsanlar nə üçün süni işıq mənbələri düzəldirlər?



3. Yaşayış məskəninə uyğun gələn bənd hansıdır?

a.


c.


b.


d.


# 5 CANLILAR



**HAZIRSINIZMI?**

- Bitkilər və heyvanlar yaşamaq üçün bir-birinə necə kömək edir?
- Bitkilər qidalanmaq üçün hansı hissələrindən istifadə edir?
- Heyvanlar böyüdükcə necə dəyişir?

# 18 HEYVANLARI TANIYAQ

**Açar sözlər**

- tük
- lələk
- quyruq
- üzgəc
- pulcuq



• İnsan bədəni hansı hissələrdən ibarətdir? Bəs heyvanların bədəni hansı hissələrdən ibarətdir?

**FƏALİYYƏT** PAZLI TAMAMLA

1. Qruplara bölünün.
2. Pazlın hissələrini tamamlamaqla hansı canlı olduğunu tapın.




• Pazlları birləşdirərkən nələrə diqqət etdiniz?
• Hansı bədən hissəsi şəkildəki heyvanı tapmaqda sizə kömək etdi?

## ÖYRƏNMƏ

Heyvanların qulaqları, gözləri, burnu, ağzı və digər bədən hissələri var. Bir çox heyvanların quyruğu olur. İt, pişik, inək, canavar, tülkü, şir kimi heyvanların bədəni tüklə örtülmüşdür.







Əksər balıqların bədəni isə pulcuqlarla örtülmüşdür. Onlara suda üzməyə kömək edən üzgəclər və quyruq var.




Digər heyvanlardan fərqli olaraq quşların dimdikləri var. Onların bədəni lələklərlə örtülmüşdür. Quşların uçmağa kömək edən qanadları var, ancaq bütün quşlar uça bilmir.

### Müzakirə

- Hansı heyvanların bədəni tüklə örtülmüşdür? Tük örtüyünün onlara faydası nədir?
- Bədəni pulcuqlarla örtülmüş başqa hansı heyvanları tanıyırsınız?

## TAPŞIRIQ

1. Şəkildə verilmiş canlıların bədən hissələri onlara hansı işi görməkdə kömək edir?



quş



balıq



pişik

2. Verilmiş sözləri canlılarla uyğunlaşdırın.

tük     lələk     pulcuq



toyuq



ilan



inək

### Özünüzü yoxlayın

- Heyvanlarda insanlardan fərqli hansı bədən hissələri var?
- Heyvanların bədəni xaricdən nə ilə örtülüb?

19

# CANLILARIN ÇOXALMASI VƏ BÖYÜMƏSİ

**Açar sözlər**
- çoxalmaq
- böyümək



- Canlılar böyüdükcə necə dəyişirlər?

**FƏALİYYƏT** **FƏRQLƏNDİRƏK**

1. Kiçik qruplara bölünün.
2. Şəkildə verilmiş heyvanları balalarından fərqləndirin və dəftərinizə qeyd edin.
3. Qeydlərinizi əsaslandıraraq digər qrup yoldaşlarınıza təqdim edin.







- Hansı fərqləri müşahidə etdiniz?
- Müşahidələrinizdən hansı nəticəni çıxartdınız?

## ÖYRƏNMƏ

Canlıların əsas əlamətlərindən biri də onların çoxalması və böyüməsidir. İnsanlar, heyvanlar və digər canlılar çoxalaraq öz nəsillərini davam etdirirlər.

Quşlar yumurta qoyaraq çoxalır.



Tısbağalar və əksər balıqlar da yumurta qoyaraq çoxalır. Balıq yumurtası kürü adlanır.





İt, pişik, inək, canavar, tülkü, şir və keçi kimi heyvanlar isə diri bala doğurlar. Canlılar böyüdükcə həm də dəyişirlər.



### Müzakirə

• Heyvanlar çoxala bilməsəydi, nə baş verərdi?

## TAPŞIRIQ

1. Verilmiş sözləri şəkillərlə uyğunlaşdırın.

a) **köşək** b) **dayça** c) **yumurta** d) **mavrı**



1



2



3



4

2. Şəklə diqqətlə baxın: insanın yaşı artdıqca o necə dəyişir?



**körpə** **uşaq** **gənc** **qoca**

### Özünüzü yoxlayın

- Çoxalmanın canlılar üçün əhəmiyyəti nədir?
- Hansı canlılar yumurta qoyaraq çoxalır?

# 20 BİTKİLƏRİ TANIYAQ



**Açar sözlər**

- kök
- gövdə
- yarpaq
- çiçək

- Sizcə, şəkildəki ağac niyə aşmır?
- Ağacı aşmağa qoymayan nədir?

## FƏALİYYƏT SEVDİYİM GÜL

Ləvazimat: rəngli kağız, yapışqan, qayçı və qalın ip.




1. Qruplara bölünün.
2. Yaşıl rəngli kağızlardan gövdə və yarpaq hazırlayın.
3. Qalın iplərdən kök hazırlayın.
4. İstədiyiniz rəngdə çiçək hazırlayın.
5. Düzəltdiyiniz hissələri bir kağız üzərinə yapışdırın.
6. Hazırladığınız modelin üzərində gülün hissələrinin adlarını yazın.

- Bitkilərin hansı hissələrini tanıyırsınız?

## ÖYRƏNMƏ

Çiçəkli bitkilərin müxtəlif hissələri var. Bu hissələr bitkilərin yaşamasına və böyüməsinə kömək edir. Kök, gövdə, yarpaq, çiçək, toxum və meyvə bitkilərin əsas hissələridir.

**Çiçək**
Bəzi çiçəklərdən meyvə əmələ gəlir.

**Yarpaq**
Günəş işığı və havadan istifadə edərək qida hazırlayır.



**Gövdə**
Su və qidalı maddələri daşıyır.

**Kök**
Bitkini torpağa bərkidir. Torpaqdan su və qidalı maddələri sorur.

Bitkiləri çoxaltmaq üçün onların toxumlarını torpağa əkirlər.

### Müzakirə

- Bitkilərdə yarpaq olmasaydı, nə baş verərdi?
- Sizcə, çiçəyin bitki üçün faydası nədir?

## TAPŞIRIQ

1. Bəzi bitkilərin kökləri daha uzun olur və torpağın dərinliklərinə gedir. Sizcə, bunun səbəbi nə ola bilər?



2. Meyvə və toxumların bitki üçün əhəmiyyəti nədir?







### Özünüzü yoxlayın

- Bitkilərin hansı hissələri var?
- Bitki su və qida maddələrini torpaqdan hansı hissəsi ilə alır?
- Gövdənin bitki üçün əhəmiyyəti nədir?

# 21 BİTKİLƏRİN BÖYÜMƏSİ ÜÇÜN NƏ LAZIMDIR




**Açar sözlər**

- işıq
- hava
- torpaq
- su
- istilik

• Şəklə diqqətlə baxın. Sizcə, bu bitkilər bir-birindən necə fərqlənir? Onların bu cür fərqlənmələrinə səbəb nə ola bilər?

## FƏALİYYƏT GÜL ƏKİRİK

Ləvazimat: kiçik dibçəkdə gül, böyük saxsı dibçək, torpaq və su.



1. Qruplara bölünün.
2. Kiçik dibçəkdəki bitkini zədələmədən çıxarın.
3. Bitkinin köklərini müşahidə edin.
4. Böyük dibçəyə bir az torpaq tökün.
5. Bitkini böyük saxsı qabda əkin.
6. Müşahidə etdiklərinizi dəftərinizdə çəkin və qeyd edin.

- Bitkini yeni dibçəyə köçürərkən torpaq və sudan niyə istifadə olunmalıdır?
- Sizcə, bitkinin köklərinin çox və şaxələnmiş olmasının səbəbi nə ola bilər?

## ÖYRƏNMƏ

Yer kürəsində çoxlu və müxtəlif bitkilər var. Onlar ölçüsünə, formasına və rənginə görə bir-birindən fərqlənir. Bu müxtəlifliyə baxmayaraq bitkilərin yaşaması və böyüməsi üçün ehtiyacları eynidir.

Bəs bunlar nələrdir? Hava, su, Günəş işığı, torpaq və istilik.

Torpaqda bitkilərin böyüməsi üçün lazım olan su və qidalı maddələr var. Bitkilər özlərinə qida hazırlayarkən Günəş işığı, hava və sudan istifadə edir. Ağaclar kimi böyük bitkilərin otlarla müqayisədə havaya, suya, qidaya və Günəş işığına ehtiyacı daha çoxdur.

Bəzi bitkilər isə digərlərindən daha az hava, su, qida və Günəş işığı ilə də yaşaya bilir.




### Müzakirə

- Torpaq olmasa, bitkilər böyüyə bilərmi? Fikrinizi əsaslandırın.
- Sizcə, hansı yaşayış yerlərində bitkilər daha az su ilə yaşaya bilir?

## TAPŞIRIQ

1. Şəklə diqqətlə baxın. Otağın müxtəlif hissəsinə qoyulmuş iki bitki verilmişdir. Onlar bir-birindən necə fərqlənir? Sizcə, bunun səbəbi nə ola bilər?



2. Şəklə diqqətlə baxın. Şəkildə təsvir olunmuş bitkilər bir-birindən necə fərqlənir? Sizcə, bunun səbəbi nə ola bilər?



**Özünüzü yoxlayın**

- Torpağın bitkilər üçün əhəmiyyəti nədir?
- Bitkilərin torpaqdan başqa nələrə ehtiyacı var?

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Uyğunluğu müəyyən edin.

**a.** Uçmağa kömək edir **b.** Üzməyə kömək edir **c.** Qidalanmağa kömək edir





2. Çiçəkli bitkilərin kökü ilə yarpaqları arasında hansı hissə olur? Bu hissənin bitki üçün əhəmiyyəti nədir?

3. Bitkilər qidalı maddələri və suyu haradan alır? Uyğun şəkli müəyyən edin.

**a.**

**b.**

**c.**


# 6 EHTİYATLI DAVRANAQ



## HAZIRSINIZMI?

- Yolda və nəqliyyatda hansı təhlükəsiz davranış qaydalarına əməl etmək lazımdır?
- Zəlzələ, sürüşmə, qazsızma, partlayış hadisəsi zamanı nələri bilməliyik?

# 22 NƏQLİYYATDA VƏ YOLDA

**Açar sözlər**
- ictimai nəqliyyat
- davranış qaydaları




- Ana nə üçün oğluna: "Yıxılarsan!" – deyir?
- Avtobusda hansı qaydalara əməl edirsiniz?

## FƏALİYYƏT AVTOBUSDA VƏ YOLDA

- Yoldaşlarınızdan birini aparıcı seçin.
- İki komandaya bölünün.
- Aparıcı verilən cümləri səsləndirsin.
- Komandalar **"Bəli"**, **"Xeyr"** deməklə sualları cavablandırır.
- Düzgün cavabı çox olan komanda qalib sayılır.



? ?

Bu nişan piyadaların hərəkətinə icazə verir.



? ?

Tez-tez dayanacaqdan çıxaraq avtobusun gəlməsini yoxlamaq lazımdır.



? ?

Bu nişan yolu yeraltı keçiddən istifadə edərək keçməyi bildirir.



? ?

Yolu bu qaydada keçmək həyatınız üçün təhlükəlidir.



Avtobusda, metroda musiqiyə yüksək səslə qulaq asmaq lazımdır.

? ?

## ÖYRƏNMƏ

Nəqliyyat vasitələri insanların həyatını asanlaşdırır və vaxta qənaət etmələrinə imkan yaradır. Piyada həm gəzərkən, həm də nəqliyyat vasitələrindən istifadə edərkən qaydalara əməl etməlidir. Bu, təhlükəsizliyimiz üçün olduqca vacibdir.



- Hərəkət edən nəqliyyat vasitəsinin qarşısından heç vaxt qaçaraq keçməyin.
- Yolu dayanacaqda duran avtomobil, avtobus və digər nəqliyyat vasitələrinin arxasından keçin.
- Yeraltı və yerüstü keçidlər olan yerlərdə mütləq onlardan istifadə edin.



Yeraltı keçid nişanı



Yerüstü keçid nişanı



• Birqapılı avtobusa minərkən əvvəl düşənlərə yol verin. İki və üçqapılı avtobuslarda isə ön qapıdan minin, orta və arxa qapıdan düşün.

• Avtobus və digər nəqliyyat vasitələrinə minərkən yaşlılara, uşaqlı valideynlərə, əlillərə yol verin.

• Nəqliyyat vasitəsinə minərkən tələsməyin. Sərnişinləri itələməyin.

• Nəqliyyat vasitəsində gedərkən əlinizi, qolunuzu və başınızı pəncərədən bayıra çıxarmayın. Bu olduqca təhlükəlidir.

### Müzakirə

- Hərəkət edən nəqliyyat vasitəsinin qarşısından qaçaraq keçmək nə üçün təhlükəlidir?
- Nəqliyyatda gedərkən qolunuzu pəncərədən bayıra çıxarmaq hansı təhlükəli vəziyyətə səbəb ola bilər?

## TAPŞIRIQ

Yol nişanlarını adları ilə uyğunlaşdırın.


1


2


3


4

| A | B | C | D |
|---|---|---|---|
| Yeraltı piyada keçidi | Piyadaların hərəkəti qadağandır | Yerüstü piyada keçidi | Piyada keçidi |

### Özünüzü yoxlayın

- Piyadalar yolu keçərkən hansı nişanlara diqqət etməlidirlər?
- Nəqliyyat vasitəsində hansı qaydalara əməl etmək lazımdır?

# 23 Təbii fəlakətlər

**Açar sözlər**
- zəlzələ
- sürüşmə




- Siz Kamranın sualına necə cavab verərdiniz?

## FƏALİYYƏT TORPAQ SÜRÜŞMƏSİ

Ləvazimat: rəngli kağız, karton, yapışqan, plastik qab, bir stəkan qum.

**1.** Kiçik qruplara bölünün.
**2.** Kağızdan iki ev modeli hazırlayın.
**3.** Bir plastik qabın içərisinə maili vəziyyətdə iki tərəfdən qatlanmış karton birləşdirin.
**4.** Ev modellərinin birini plastik qabda iki tərəfdən qatlanmış kartona yaxın, digərini isə uzaqda yerləşdirin.
**5.** Stəkandakı qumu iki tərəfdən qatlanmış karton vasitəsilə plastik qaba boşaldın.

- Nə baş verdi?
- Evlər arasında hansı fərqi müşahidə etdiniz?



## ÖYRƏNMƏ



Təbiətdə müxtəlif təbii fəlakətlər baş verir. Sel, zəlzələ və torpaq sürüşməsi kimi hadisələr təbii fəlakətdir.

Zəlzələ Yer səthinin güclü titrəməsi səbəbindən baş verir. Bu hadisə binaların və digər tikililərin dağılmasına səbəb olur.

Torpağın üst qatının sürüşərək yerini dəyişməsi torpaq sürüşməsi adlanır. Bu hadisə yaşayış ərazisinə ciddi ziyan vurur. Torpaq sürüşməsinin qarşısını almaq üçün ağac əkmək lazımdır.

Bəs təbii fəlakətlərdən necə qoruna bilərik?

### Zəlzələ zamanı qorunma qaydaları



Pəncərədən kənarda, otağın küncləində dayanın.



Stolun altına girərək qorunun.



Şkafa yaxın dayanmayın.



Liftə minməyin.

### Müzakirə

- Sizcə, ağacların əkilməsi torpaq sürüşməsinin qarşısını necə ala bilər?
- Zəlzələ zamanı nə üçün şkafın yanında dayanmaq olmaz?

## TAPŞIRIQ

1. Zəlzələdən qorunmağa aid olan düzgün bəndi seçin.


A


B


C


D

2. Təbii fəlakətlərə aid olan düzgün və yanlış fikirləri müəyyən edin.

**a.** Təbii fəlakətlər zamanı canlılar yaralana bilər.
**b.** Zəlzələdə qışqıraraq liftə tərəf qaçmaq lazımdır.
**c.** Sürüşmə meşələrin qırılması səbəbindən baş verə bilər.
**d.** Fəlakətlər üçün təhlükəsizlik qaydalarının əhəmiyyəti yoxdur.

3. Təbii fəlakətlər zamanı hansı ləvazimatı götürərdiniz?


A


B


C


D

### Özünüzü yoxlayın

- Hansı təbii fəlakətləri tanıyırsınız?
- Təbii fəlakətlərdən qorunma yollarının bir neçəsini sadalayın.

# 24 TƏHLÜKƏLƏRDƏN NECƏ QORUNAQ



**Açar sözlər**

- texnogen qəza
- təcili zəng
- ünvan

• Şəkildə hansı peşə sahiblərini görürsünüz?
• Hansı hadisələr zamanı bu peşə sahiblərinə müraciət edirik?

## FƏALİYYƏT NECƏ KÖMƏK ETMƏLİ?

**1.** İştirakçılar seçilir.
**2.** Onlara suallar verilir.
**3.** Suala düzgün cavab verən iştirakçı iki addım irəliləyir. 🟢
**4.** Suala yanlış cavab verən iştirakçı bir addım irəliləyir. 🔴



**Suallar və tapşırıqlar:**

**a.** Yanğın zamanı hansı nömrəyə zəng vurmalısınız?
**b.** Hansı məişət cihazları yanğına səbəb ola bilər?
**c.** Şəkil A-da nə baş verib? Bu hadisə zamanı hansı nömrəyə zəng etməlisiniz?
**d.** Yanğın haqqında xəbər vermək üçün hansı məlumatları bilməlisiniz?
**e.** Şəkil B-də gördüklərinizin səbəbini izah edin.






## ÖYRƏNMƏ

Texnogen qəzalar insanların elektrik, qaz cihazları və nəqliyyat vasitələri ilə ehtiyatsız davranması nəticəsində baş verir.
Məsələn, nəzarətsiz qalan elektrik və qaz cihazları yanğına, qazsızmalar isə partlayışa səbəb ola bilər.



### Texnogen qəzalar zamanı nə etməliyik?

• Böyüklərin nəzarəti olmadan qaz sobasından və elektrik avadanlıqlarından istifadə etməyin.
• Mənzildə qazsızma hiss etdikdə elektrik cihazlarını şəbəkəyə qoşmayın, tez qapı və pəncərələri açın. Böyüklərə məlumat verin.
• Mənzildə yanğın baş veribsə, dərhal telefonla "112" və ya "101" nömrəsinə zəng edərək məlumat verin.
• Nəqliyyat qəzaları zamanı "103" nömrəsinə zəng edərək təcili tibbi yardım çağırın.
• Zəng edərkən yaşadığınız şəhərin, rayonun, küçənin adını və eləcə də mənzilin nömrəsini dəqiq deyin.

### Müzakirə

• Qazsızma zamanı nə üçün ilk növbədə qapı və pəncərəni açmaq lazımdır?
• Yol-nəqliyyat qəzaları zamanı nə üçün təcili tibbi yardım çağırmalıyıq?

## TAPŞIRIQ

1.



Düşünürəm ki, nəqliyyat qəzası və yanğın zamanı "103" nömrəsinə zəng etmək lazımdır.

Səbinə

Məncə, hər iki hadisə zamanı "103" və "112" nömrələrinə zəng edilməlidir.

Kamran



Bu uşaqların hansının fikrini düzgün hesab edirsiniz? Fikrinizi izah edin.

2. Verilmiş nümunəyə uyğun  məlumat kartınızı hazırlayın.

| | |
|---|---|
| Yaşadığınız şəhər, rayon, qəsəbə, kənd | *Şuşa şəhəri* |
| Yaşadığınız küçə | *Pənahəli xan küçəsi* |
| Evinizin nömrəsi | *7* |
| | |
| | |

### Özünüzü yoxlayın

- Texnogen qəza nə deməkdir?
- Texnogen qəzalara aid nümunələr göstərin.
- Nəqliyyat qəzaları zamanı ilk olaraq hansı nömrəyə zəng etməliyik?

# 25 QƏNAƏT

**Açar sözlər**
- kommunal xərclər
- cibxərcliyi
- səmərəli istifadə




• Nə üçün istifadə etmədikdə işığı söndürmək lazımdır?

## FƏALİYYƏT KARTLARI BİRLƏŞDİRİN

Ləvazimat: məişət avadanlıqlarının şəkilləri və tövsiyələr yazılmış kartlar.

**1.** İki komandaya bölünün.

**2.** Kartları şəkillərlə elə cütləşdirin ki, "Necə qənaət etmək olar?" sualına düzgün cavab alınsın.



Dişlərinizi fırçalayarkən bağlayın.

Otaqdan çıxanda söndürün.

Yalnız pəncərə və qapılar bağlı olduqda işə salın.

Qapısını tez-tez açıb-örtməyin.

Heç kim baxmırsa, söndürün.

• Siz bu tövsiyələrdən hansına əməl edirsiniz?

## ÖYRƏNMƏ





İstifadə edilən elektrik, qaz və su üçün pul ödənilir. Bunlara kommunal xərclər deyilir. Sudan, qazdan və elektrikdən qənaətlə istifadə etməyəndə kommunal xərclər artır.

**Qənaətlə istifadə nə deməkdir?**

Suyun, işığın və elektrik cihazlarının yalnız lazım olanda istifadə olunması qənaətlə istifadə deməkdir.

Cibxərcliyinə faydalı şeyləri almaqla, şəxsi əşya və məktəb ləvazimatını səliqə ilə düzgün istifadə etməklə qənaət edirsiniz.







### Müzakirə

- Başqa nəyə qənaət etmək vacibdir?
- Siz cibxərcliyinizi necə istifadə edirsiniz?

## TAPŞIRIQ



1. Ailələrin kommunal xərclərinə münasibət bildirin.

Çoxmərtəbəli binada iki ailə yaşayır. Bu ailələrin hər ikisində valideynlər və iki məktəbli uşaq var. Onların otaqlarının sayı da eynidir. Ailələrin şəraiti eyni olsa da, onların kommunal xərcləri fərqli olur. Birinci ailə hər ay təxminən 12 manat su, 18 manat işıq, 20 manat qaz pulu ödəyir. İkinci ailə isə suya 22, işığa 27, qaza görə 20 manat ödəniş edir.

• Hansı ailə kommunal xərclərə daha çox qənaət edir?
• İkinci ailəyə qənaət etmək üçün nə tövsiyə edərdiniz?

2. Dəftərinizdə nümunəyə uyğun cədvəl çəkin. Bugünkü cibxərcliyinizə cədvəldə göstərilənlərdən hansıları almağı vacib hesab edirsiniz?

| Alacağınız şeylər | Pulun məbləği |
|---|---|
| 1. Yemək | |
| 2. Məktəb ləvazimatı | |
| 3. Dosta hədiyyə | |
| 4. Oyuncaq | |

### Özünüzü yoxlayın

• Sudan, elektrikdən necə istifadə etmək lazımdır?
• Cibxərcliyindən necə istifadə etmək sərfəlidir?

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Hansı şəkildə nəqliyyatda davranış qaydalarına düzgün əməl edən uşaqlar təsvir olunmuşdur?




2. Şəkildə hansı təbii hadisədən qorunma yolu göstərilmişdir?

**a) yanğın** **c) daşqın**

**b) zəlzələ** **d) sürüşmə**



3. Verilmiş xanalardakı hərflərin ardıcıllıq sırasını nümunəyə uyğun düzərək texnogen qəzalara aid sözü və ya söz birləşməsini tapıb dəftərinizdə yazın.

**Nümunə:**

A Z Q — Z I S I S A M

Q A Z — S I Z M A S I

R A L T A P Ş I Y

Y A N N Ğ I

M O B İ L O T V A — Ə Q A Z I S

*BURAXILIŞ MƏLUMATI*

---

*Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün*
*Həyat bilgisi fənni üzrə*
***dərslik***

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Elşad Yunusov**<br>**Gülər Mehdiyeva**<br>**Elmina Kazımzadə**<br>**Yalçın İslamzadə**<br>**Elmar İmanov**<br>**Famil Ələkbərov**<br>**İlahə Tağıyeva** |
| Koordinator | **Əli Ağacanlı** |
| Redaktor | **Əsgər Quliyev** |
| İxtisas redaktoru | **İsmayıl Sadıqov** |
| Bədii redaktor | **Eldəniz Xocazadə** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Eldəniz Xocazadə** |
| Rəssam | **Elmir Məmmədov** |
| Korrektor | **Aqşin Məsimov** |
| Məsləhətçi | **Rasim Abdurazaqov** |
| Məsləhətçi qurum | **"Alston" Nəşriyyat Evi** |

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2024-008**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri
və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-550-11-5

Hesab-nəşriyyat həcmi: 9,6. Fiziki çap vərəqi: 12.
Səhifə sayı: 96. Kəsimdən sonra: 220 × 275. Kağız formatı: 57 × 90 $^1/_8$.
Şriftin adı və ölçüsü: Segoe UI, 16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Tiraj:131300. Pulsuz. Bakı – 2024.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 17.05.2024

Çap məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş. A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
"Çaşıoğlu" MMC (Bakı şəhəri, M.Müşfiq küçəsi, 2 A).

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!

